# Milli Məclisin Sədri Mahaçqalada baş vermiş partlayışla bağlı rusiyalı həmkarlarına başsağlığı verib

Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Dağıstan Respublikasının Mahaçqala şəhərində yanacaqdoldurma məntəqəsində baş vermiş partlayış nəticəsində baş vermiş insan tələfatı ilə bağlı rusiyalı həmkarlarına başsağlığı verib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri bununla bağlı Rusiya Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodinə, Federasiya Şurasının sədri Valentina Matviyenkoya və Dağıstan Xalq Məclisinin Sədri Zaur Askenderova başsağlığı məktubu göndərib.

Məktubda Milli Məclisin Sədri bu ağır faciə ilə əlaqədar rusiyalı həmkarlarına, həlak olanların ailələrinə və yaxınlarına öz adından və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri adından dərin hüznlə başsağlığı verib, xəsarət alanların tezliklə sağalması diləklərini çatdırıb.

Azərbaycan. - 2023.- 16 avqust.- S.2.